

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Dekabr 2020

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

## “BİZ BU İLLƏR ƏRZİNDƏ GÜC TOPLAYIRDIQ, HƏM SİYASİ MÜSTƏVİDƏ, BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ, HƏM DƏ ÖLKƏ DAXİLİNDƏ İQTİSADİYYATIMIZI GÜCLƏNDİRİRDİK, BİZ ORDUMUZU GÜCLƏNDİRİRDİK. ”

Vətən müharibəsində
Qələbəyə həsr olunmuş
Zəfər paradında
İLHAM ƏLIYEVİN nitqi



"Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik.

Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik".

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-noyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 402,3 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-noyabr aylarında 553,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

2020-ci ilin dekabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,3 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-noyabr ayları** ərzində qeyri-neft sektoru üzrə **1,6 milyard** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **noyabr ayında** qeyri-neft sektoru üzrə ixrac **193,7 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin ilk on bir ayı ərzində Azərbaycanın ixracı **13,1 milyard** ABŞ dollar olub. Qeyri-neft sektoru üzrə **1,6 milyard** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə **142 milyon** ABŞ dolları və ya **8 faiz** azalıb.

Bu ilin yanvar-noyabr ayları ərzində Rusiyaya **628,1 milyon**, Türkiyəyə **320,6** milyon, İsveçrəyə **201,3** milyon, Gürcüstana **117 milyon** və Çinə **41,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2020-ci ilin yanvar-noyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor) (190,4 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 183,7 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (110,7 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2020-ci ilin ilk 11 ayı ərzində meyvə-tərəvəz ixracı 549,5 milyon, pambıq lifi ixracı 111,9 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 97,4 milyon, kimya sənayesi məhsullarının ixracı 76,3 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 46,6 milyon, pambıq ipliyi ixracı 15 milyon, spirtli və spirtsiz içkilərin ixracı 10,9 milyon, şəkər ixracı 21,4 milyon, bitki və

spirtsiz içkilərin ixracı 10,9 milyon, şəkər ixracı 21,4 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 22 milyon, çay ixracı 8,5 milyon ABŞ dolları təşkil edib.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin ilk 11 ayı ərzində meyvə-tərəvəz ixracı 1,4 faiz, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 33,1 faiz, çay ixracı 0,5 faiz artıb.

2020-ci ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixrac 193,7 milyon ABŞ dolları təşkil edib. 2020-ci ilin noyabr ayında qeyri-neft sektorunun ümumi ixracda payı 23,4 faiz təşkil edib. Ötən dövrlə müqayisədə bu rəqəm 9,3 faiz çoxdur. 2020-ci ilin noyabr ayında yeyinti məhsullarının qeyri-neft sektorunda payı 50,3 faiz, qeyri-yeyinti sektoru üzrə isə 49,7 faiz təşkil edib.

Bu ilin noyabr ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (77,5 milyon ABŞ dolları), Türkiyəyə (35,1 milyon ABŞ dolları), İsveçrəyə (24,8 milyon ABŞ dolları), Gürcüstana (7,9 milyon ABŞ dolları) və İtaliya (7,3 milyon ABŞ dolları) ixrac edilibə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2020-Cİ İLİN **yanvar-noyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2020-Cİ İLİN **noyabr ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN yanvar-noyabr aylarında İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI DEKABR

| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 190,4 | 166,7 |
| Qızıl | 183,7 | 157,7 |
| Pambıq mahlıcı | 110,7 | 107,4 |
| Fındıq ləpəsi | 100,8 | 113,5 |
| Xurma | 64,9 | 84,5 |
| Elektrik enerjisi | 56,8 | 76 |
| İlkin formalı polipropilen | 56,3 | 59,4 |
| Albalı və gilas | 48,6 | 42,2 |
| Metanol | 46,1 | 63,5 |
| Digər | 780 | 910,1 |

## 2020-Cİ İLİN **noyabr ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI DEKABR












| Mal | 2020 | 2019 |
|---|---|---|
| Xurma | 29,5 | 37 |
| Qızıl | 24,5 | 15,7 |
| Tomat (pomidor) | 17,4 | 19,1 |
| Qabığı təmizlənmiş meşə fındığı | 16,4 | 13,4 |
| Pambıq mahlıcı | 16 | 16,9 |
| Sair təzə meyvələr | 8,1 | 6,4 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 6,3 | 0,5 |
| Alma | 6,3 | 6,3 |
| Şəkər | 4,6 | 2,2 |
| Digər | 64,7 | 85 |

# Yanvar - noyabr aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI DEKABR

## 2019

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerji | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (Pomidor) | 24,2 |
| May | Tomat (Pomidor) | 54,6 |
| İyun | Tomat (Pomidor) | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |
| Noyabr | Xurma | 37 |

## 2020

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 29,4 |
| May | Tomat (Pomidor) | 49,7 |
| İyun | Tomat (Pomidor) | 39,2 |
| İyul | Albalı və gilas | 16,4 |
| Avqust | Qızıl | 28 |
| Sentyabr | Qızıl | 25,8 |
| Oktyabr | Xurma | 19,7 |
| Noyabr | Xurma | 29,5 |

2

# 2020-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2020-ci ilin yanvar-noyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2020-ci ilin 11 ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Socar Polymer" MMC, "Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Sun Food" MMC, "Global Trade Group" MMC,  "Almeyvə" MMC, "Baku Steel Company", "Aqrovest" MMC və " Fruit Store" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və "Azəripək" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2020-Cİ İLİN **yanvar-noyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2020-Cİ İLİN yanvar-noyabr aylarında QEYRİ-NEFT SEKTORU ÜZRƏ dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2020 İXRAC İCMALI DEKABR

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| ARDNŞ-nin “MARKETİNQ Və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ” | 127,4 milyon | 205,1 milyon |
| “AZERGOLD" QSC | 99,8 milyon | 79 milyon |
| “AZƏRALÜMİNİUM" MMC | 83,6 milyon | 106,3 milyon |
| “AZƏRENERJİ" ASC | 56,0 milyon | 75,9 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 26,7 milyon | 22,3 milyon |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 6,8 milyon | 20,8 milyon |
| “AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 1,4 milyon | 2,4 milyon |
| "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MMC | 822 min | 0 |
| NAXÇIVAN MR DÖVLƏT ENERGETİKA XİDMƏTİ | 773 min | 139 min |
| "AZƏRIPƏK" MMC | 564 min | 651 min |



# 2020-Cİ İLİN **yanvar-noyabr aylarında "Azərkosmos" ASC 41,3 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



2020-ci ilin yanvar-noyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **30 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir. 2020-ci ilin noyabr ayında isə "Azərkosmos" ASC dünyanın **20 ölkəsinə 3,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| Fransa | 11,2 mln $ |
| Birləşmiş Krallıq | 10,2 mln $ |
| ABŞ | 9,2 mln $ |
| Malayziya | 6,9 mln $ |
| BƏƏ | 1,3 mln $ |



## **2020-ci ilin yanvar-noyabr aylarında** Azərbaycana gələn xaricilər **bank kartları vasitəsi ilə** **402,3 milyon** manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-noyabr aylarında Azərbaycana dünyanın 155 ölkəsindən 720,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Koronovirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması cari ilin aprel-noyabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb olub və səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilib.

2020-ci ilin noyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **23,2 milyon** manat təşkil edib. 2020-ci ilin yanvar-oktyabr ayında isə əcnəbilər bank kartları vasitəsi ilə **402,3 milyon** manatlıq əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | **99,8** | **88,3** | **85,2** |
| Fevral | **91,1** | **85,3** | **72,9** |
| Mart | **105,8** | **98,0** | **53,9** |
| Aprel | **109,7** | **103,2** | **19,7** |
| May | **107,3** | **100,9** | **24,3** |
| Iyun | **106,7** | **115,1** | **23,7** |
| Iyul | **126,3** | **134,6** | **23,0** |
| Avqust | **141** | **137,4** | **25,6** |
| Sentyabr | **114,6** | **106,2** | **25,9** |
| Oktyabr | **117** | **104,7** | **24,9** |
| Noyabr | **76,2** | **90,3** | **23,2** |
| CƏMİ | **1195,5** | **1164,1** | **402,3** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2020-CI ILİN YANVAR-NOYABR AYLARINDA 553,3 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **2 milyard 138 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin yanvar-noyabr aylarında Azexport.az portalına **553,3 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 11 ayında portal daxil olan ixrac sifarişləri dəyər baxımından **3,9 faiz** artmışdır.

2020-ci ilin noyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 41,1 milyon ABŞ dolları təşkil etmişdir.

Cari ilin noyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi toyuq əti və yumurtası, pambıq yağı, fındıq, tütün, çay, günəbaxan yağı, alma, şərab, qənnadı məhsulu, ketçup, nar, armud, kosmetik vasitə mühərrik yağı, bal, boya, zəfəran, tibbi zəli və s. mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 30 noyabr tarixinə kimi (47 ay ərzində) Azexport.az portalına dünyanın **142 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 138 milyon** ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **Azexport.az** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**
İyul - **55,0**
Avqust - **54,9**
Sentyabr - **33,0**
Oktyabr - **49,8**
Noyabr - **41,1**

2017-ci il
**CƏMİ - 475**

2018-ci il
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 595,7**

2020-ci il
**CƏMİ - 553,3**



Son **47 ay** ərzindəki sifarişlərin cəmi - **2 138,1**

# 2020-Cİ İLİN **noyabr ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2020 İXRAC İCMALI DEKABR

### Pambıq yağı


### Pambıq mahlıcı


### Toyuq yumurtası


### Fındıq


### Kərə yağı


### Quru süd


### Pambıq çiyidi


### Kartof


### Tütün


### Biyan kökü


### Şərab


### Mühərrik yağı


### Kosmetik vasitə


### Qənnadı məhsulu


### Mebel dəsti


4

# 2020-Cİ İLİN DEKABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 17,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin dekabr ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **140 dəfə** müraciət daxil olunub. Ümumilikdə **167 ədəd sertifikat** (92 ədəd mənşə, 43 ədəd baytarlıq, 11 ədəd Qida təhlükəsizliyi sertifikatı, 21 ədəd CİTES) verilib.

Cari ilin dekabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 17,3 (17,330,015.26) milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, nar, alma, albalı şirələri, narşərab, bitki, zeytun və günəbaxan yağları, dondurma məhsulları, sosiska, tərəvəz turşuları, biyan kökü, şokoladlı konfetlər, tibbi zəli, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların əti və kürüsü, pendir, zəfəran, zəfəran mürəbbələri, şərab, spirtli içki, duzlanmış dondurulmuş Xəzər kilkəsi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan mədəsi, oksigen maye qazı, polad armatur yayması, polad boru, polad kvadrat pəstah, polad məftil, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar (57,2%), polad armatur yayması (27,9%), günəbaxan yağları (4,3%), pendir (3,4%), meyvə şirələrinin (1,1%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 21 ölkəyə- İsveçrə (57,2%), Rusiya (13,5%), Gürcüstan (8,8%), Türkiyə (9,9%), İraq (3,8%), digər ölkələrə (6,8%)- (ABŞ, Almaniya, Belarus, Danimarka, Fil Dişi Sahili, Hindistan, İran, Honq-Konq, İraq, Malayziya, Mərakeş, Niderland, Çin, BƏƏ, Ukrayna, Özbəkistan, Qazaxıstan,) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (57,4%), avtomobil ilə (31,5%), dəmiryolu nəqliyyatı (10,1%), qarışıq nəqliyyat növləri ilə ixracı isə (0,8%) təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2019-cu ilin dekabr ayı ilə müqayisədə ixracda **7,6 milyon** ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

# 2020-Cİ İLİN **dekabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






# CARİ İLİN **DEKABR AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

2020 İXRAC İCMALI DEKABR

İSVEÇRƏ
**57,2%**

RUSİYA
**13,5%**

GÜRCÜSTAN
**8,8%**




TÜRKİYƏ
**9,9%**

İRAQ
**3,8%**

## CARI İLİN DEKABR AYINDA **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
## **ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**





CARI İLİN DEKABR AYINDA **“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi** vasitəsilə

**İxrac edilən məhsulların NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

2020 İXRAC İCMALI DEKABR



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

